Kredo.- 2021.- 5 noyabr.- S.16.

# Professor Vüqar Əhməd Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki seçilib





AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Vüqar Əhməd Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının üzvü seçilib və sözügedən qurumun "Beynəlxalq qızıl ulduz" medalı ilə təltif olunub. Vüqar Əhməd bu mükafata Azərbaycan-Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətlərinin güclənməsinə verdiyi töhfələrə, eləcə də türk dünyasının ədəbiyyatı və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə layiq görülüb.


TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİ
AKADEMİK
ÜYE DİPLOMASI
TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİ
BİLİMSEL GENEL KURUL ÜYELERİ KARARIYLA
Sn. Prof. Dr. VÜGAR MİKAYIL oğlu AHMED
(Azerbaycan)
TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİNİN
AKADEMİK ÜYESİ SEÇİLMİŞTİR.
Başkan: Prof. Dr. HASAN AHMET
Genel Sekreter: Prof. Dr. Tuncay PALTA
15 Ekim 2021 AÜ - 175
Ankara-TÜRKİYE

Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan təmsilçisi, görkəmli alim,şair, professor-doktor Elçin İsgəndərzadə kafedra müdiri olduğu Texniki Universitetdə Vüqar Əhmədə Azərbaycanda elminin inkişafındakı xidmətlərinə görə akademik elmi adına layiq görüldüyünü bildirib.

Beynəlxalq "Qızıl Ulduz" medalı və akademiyaya üzvlük diplomu professor Elçin İsgəndərzadə tərəfindən Vüqar Əhmədə təqdim edilib. Vüqar müəllim əməkdaşı olduğu AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kollektivi adından Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının ona səs verən bütün üzvlərinə və namizədliyini dəstəkləyən Elçin İskəndərzadəyə təşəkkürünü bildirib:-"Bu təkcə mənim uğurum deyil,Azərbayca Milli Elmlər Akademiyasının, Ədəbiyyat İnstitutunun, Azərbaycan elminin uğurudur".



Vüqar Əhməd eyni zamanda Nyu-York Elmlər Akademiyasının üzvüdür. 40-dan çox elmi-ədəbi kitabların, monoqrafiyaların və dərsliklərin müəllifidir. Elmi və bədii əsərləri rus, fars, ingilis, türk və başqa dillərdə dünyanın tanınmış nəşriyyat və dərgilərində çap olunmuşdur. Görkəmli ədəbiyyatşünas alim, sevimli şairimizi akademik adı alması münasibətilə təbrik edirik ona can sağlığı və elmi-ədəbi yaradıcılığında uğurlar arzulayırıq.

***Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının mətbuat xidməti***